# Mətbuatımızın mücahidi



*Nəsir müəllimin tərcümeyi-halı dövrün keşməkeşli səhifələrində hər zaman ləyaqət təcəssümü olub. Təkcə o dövrün yazılı mənbələri, arxiv materialları ilə tanış olmaq kifayətdir ki, əsl ziyalı obrazı haqqında təsəvvür formalaşsın. O dövrün tarixini yaradan insanları ictimaiyyətə tanıtmaq, millət qarşısındakı xidmətlərini bugünkü nəslə çatdırmaq isə bir müqəddəs haqq işi olaraq tələbələrinin və davamçılarının boynuna düşür...*

**Filologiya üzrə fəlsəfə doktoru Şərəf Cəlil də həmin qəbildən olan insanlardandır...**

– Mən Nəsir müəllimi yaxından tanıyan, sevən, eyni zamanda hər an onun fəaliyyəti və yaradıcılığı ilə nəfəs alan biri kimi düşünürəm ki, tarixi böyük şəxsiyyətlər yaradır. Nəsir İmanquliyevin jurnalistika sahəsində zəngin pedaqoji fəaliyyəti Azərbaycan jurnalistlərinin böyük bir nəslinin formalaşmasında mühüm rol oynayıb. Bu cür şəxsiyyətlərin ən böyük mükafatı millətin onlara olan sevgisi, məhəbbətidir.

**– Şərəf xanım, adətən, XX yüzilliyi iqtisadi yeniliklər, xarüqələr dövrü kimi xatırlayırıq. Haqqında söhbət açacağımız professor Nəsir İmanquliyev də belə bir dövrün tarixi şəxsiyyətlərindəndir...**

– Nəsir müəllim hər şeydən əvvəl əsl ziyalı idi. O, yaradıcılığında, varlığında Quzeylə Güneyi birləşdirən böyük şəxsiyyətlərimizdəndir. Nəsir müəllim kökü etibarilə Azərbaycanın cənubu – Savalan, Əhər, Əlincənin ətəyi, Araz çayı, Xudafərinin o tayı ilə bağlı bir insan idi. Bilirsiniz ki, XX yüzilliyin əvvəllərində Cənubi Azərbaycanda qıtlıq oldu. Bu taya çörək ardınca gələn Nəsir İmanquliyevin bütün sonrakı fəaliyyətində, qələmində, şəxsiyyətində, varlığında, yaradıcılığında Azərbaycanın mənəvi dəyərləri, tarixi keçmişi önəmli yer tutur.

Azərbaycanda ilk təhsilini Neft texnikumunda alan Nəsir İmanquliyev "Gənc işçi", "Neftçi kadrosu" qəzetlərində də fəaliyyət göstərirdi. O, dövrünün böyük maarifpərvər ziyalıları Mirzə İbrahimov, Mir Cəlal Paşayev, Cəfər Xəndan, Qulam Məmmədli ilə birlikdə neftin insanların təkcə maddi rifahına deyil, həm də mənəvi dəyərlərinin inkişafına, ruhunun, zehninin, maarifçilik ideologiyasının formalaşmasına xidmət etdiyindən bəhs edən yazılar yazırdı. Azərbaycanda şura hökuməti qurulanda həmin nəsil ziyalılarının çoxu təkcə neft sənayesində çalışmadı, sənətin müxtəlif sahələrinə yönəldilər. Elmə və publisistikaya üz tutan Nəsir müəllim "Gənc işçi" və "Neftçi kadrosu" qəzetindən "Yeni yol" qəzetini seçdi. Qəzetin baş redaktoru dövrün tanınmış maarifpərvər ziyalılarından biri Qulam Məmmədli idi. Nəsir müəllim burada siravi müxbirlikdən məsul katib vəzifəsinə qədər yüksəldi. İndiki dövrdən fərqli olaraq onda məsul katiblik qəzetin simasını formalaşdıran əhəmiyyətli vəzifə idi.

**"Yeni yol" qəzetində Nəsir müəllim təkcə neftdən, şəhərin ictimai-siyasi həyatından deyil, hücumlara, basqılara məruz qalan milli-mənəvi dəyərlərimizdən də yazır, bir çox yazıları muğamın inkişafına, himayəsinə və muğamı yaşadan böyük sənətkarların yaradıcılığına həsr olunurdu...**

Bu illərdə Azərbaycanın bütün sahələrində inkişaf gedirdi. Üzeyir bəyin, Səməd Vurğunun, Məmməd Səid Ordubadinin, Müslüm Maqomayevin yaradıcılığında da milli mədəniyyət, musiqi, ədəbiyyat özünün yüksək inkişaf nöqtəsinə çatmışdı.

**"Sərt repressiyalarla müşayiət edilən belə bir dövrdə Üzeyir Hacıbəyli xalqın yaddaşını oyatmaq üçün "Koroğlu" operasını yazdı. Hansı ki bu möhtəşəm əsər illər sonra da Azərbaycan xalqını meydanlara səslədi və biz milli müstəqilliyə məhz Üzeyir bəyin "Koroğlu"sunun sədaları altında qovuşduq. Müstəqil respublikamızın üçrəngli bayrağını həmin musiqinin sədaları altında ucaltdıq. Bakı Dövlət Universitetinin auditoriyalarından, tələbə şəhərciyindən Azadlıq meydanına sözügedən uvertüranın çağırışı ilə getdik.**

**– "Koroğlu" səhnəyə qoyulanda mərkəzin, eyni zamanda respublikadakı mürtəce qüvvələrin hücumlarına məruz qaldı. Belə bir zamanda Nəsir müəllim bu xalqın tarixi keçmişini unutdurmaq istəyənlərə necə dərs verdi?**

– "Koroğlu" operasının səhnəyə qoyulması əslində Azərbaycan xalqının yaddaşa qayıdış ideologiyası üçün körpü idi. Belə bir məqamda Bakı şəhərinin əhalisini tamaşaya səfərbər eləmək üçün Qulam Məmmədli ilə Nəsir İmanquliyev "Koroğlu"nu təbliğ edən bir sıra məqalələr çap etdirdilər və artıq bunun da bir səmərə verməyəcəyini görən Nəsir müəllim yeni bir ideya ilə çıxış etdi. "Yeni yol" qəzetinin "Koroğlu" operası ilə bağlı xüsusi bülleteni çap olundu və şəhərin bütün istiqamətlərində əhaliyə çatdırıldı. Opera və Balet Teatrının səhnəsində qoyulan tamaşaya baxmaq üçün insan axını başladı. "Yeni yol" qəzetində bu barədəki məqalədə "iynə atsaydın, yerə düşməzdi" ifadəsi qeyd olunur. Dünyanın kütləvi informasiya vasitələrində, Moskvada, Tiflisdə, Zaqafqaziyanın bütün mətbu orqanlarında "Yeni yol" qəzetinə istinad olunaraq "Koroğlu" operasından, Azərbaycan milli muğamlarının ən qədim çalarlarından, klassika ilə



Nəsir müəllim dövrünün tanınmış ziyalıları ilə


Nəsir müəllim redaktor olduğu illərdə qəzetində mədəniyyətimizlə bağlı silsilə yazılar dərc olunurdu

milli musiqinin sintezindən yaranan böyük bir əsərin insan ruhuna təsirindən söhbət açılırdı.

**Bu hadisə Nəsir İmanquliyevin milli muğamlarımızla bağlı həyata keçirdiyi bir sıra çoxşaxəli layihələrinin başlanğıcı idi...**

1939-cu ildə "Yeni yol" qəzeti bağlanır. İmanquliyevin də milli musiqi alətlərimiz, muğamlarımızla bağlı yazılarının dərcində fasilə yaranır. Artıq Bakıda ana dilində mətbu orqan yox idi. Buna dözməyən Nəsir İmanquliyev ziyalıların həyatı üçün təhlükəli olan belə bir dövrdə muğamlarımızın, ana dilimizin, milli-mənəvi dəyərlərimizin xilası naminə Mərkəzi Komitənin birinci katibi Mircəfər Bağırova məktub yazır. Mircəfər Bağırov qaldırılan məsələnin əslində haqiqət olduğunu, Azərbaycan xalqının yaddaşına, gələcəyinə, keçmişinə hesablandığını nəzərə alaraq kağız parçasını nəinki bir küncə atır, müəllifi Sibirə yollayır, yaxud Nargin adalarında digərləri kimi güllələnməyə məhkum edir, əksinə, bu məktubu Moskvaya, Mərkəzi Komitəyə – Stalinə göndərir.

Üstündən 19 ay keçir, məktubdan xəbər-ətər gəlmir. II Dünya savaşı başlayır. Cəbhəyə göndərilən Nəsir müəllim Böyük Vətən müharibəsi illərində Ukrayna cəbhəsində "Döyüşən Krım" qəzetində məsul katib kimi fəaliyyəti göstərir, orda da Azərbaycan mədəniyyətindən, 416-cı Taqanroq diviziyasında döyüşən əsgərlərin həyatından soraq verən məqalələr yazır. 30-35 yaşında siyasi təbliğatçı – "zampolit" vəzifəsini tutan İmanquliyev 416-cı Taqanroq diviziyasının əsgərləri ilə Azərbaycan mədəniyyət xadimlərinin görüşünü təşkil edirdi. Ora kimlər dəvət olunmurdu: Şövkət Ələkbərova, Xan əmi, Mir Cəlal Paşayev, Seyid Şuşinski, Zülfü Adıgözəlov... Dövrün böyük sənətkarları cəbhədə belə onun vasitəsilə Azərbaycanın muğamlarının sədaları altında düşmənə qarşı mübarizəyə səfərbər olurdular.

**Bu, Nəsir İmanquliyevin döyüş illərində muğama verdiyi ən böyük töhfələrdən idi.**

1943-cü ildə Nəsir müəllim arxa cəbhəyə göndərilir. "Kommunist" qəzetində məsul katib vəzifəsində işləyir. "Kommunist" qəzeti redaksiyasının nəzdində yaratdığı ədəbiyyat dərnəyinə qəzet redaktoru Əli Valiyevlə birlikdə rəhbərlik edir. Bakı əhalisi ilə o dövrün tanınmış şəxsiyyətlərinin, o cümlədən Leyla Bədirbəyli, Üzeyir Hacıbəyli, Cəfər Xəndan, Mir Cəlal, Məmməd Səid Ordubadi, Qulam Məmmədli, Ağabacı Rzayeva kimi böyük sənətkarların görüşlərini keçirir. Həmin qəzetdə ilk şeir nümunələrini dərc etdirən Bəxtiyar Vahabzadə ilə Balaş Azəroğlu zaman keçəndən sonra "Azərbaycanın Xalq şairi" adına qədər yüksələ bilirlər.

**– 50-ci illərdə Bakıda yaşayan ermənilərin Moskvaya, Mərkəzi Komitəyə yazdığı məktublar barədə də eşitmişəm...**

– 1956-cı ildə Azərbaycanda Radio-İnformasiya Baş İdarəsi yaradılanda Nəsir İmanquliyev Mərkəzi Komitədə təbliğat-təşviqat şöbəsinin müdiri idi. Çox keçmir, Radio-İnformasiya Baş İdarəsinə rəis təyin olunur. Bu təyinatın da bir əsas səbəbi var idi. 50-ci illərdə Bakıda yaşayan ermənilər Moskvaya, Mərkəzi Komitəyə məktublar ünvanlayırdılar ki,

**...radionu nə vaxt açsan, "Rast"a rast gəlirsən...**

Yazırdılar ki, onların milli-mənəvi dəyərlərinə hücum edilir, erməni mədəniyyəti, ədəbiyyatı Azərbaycanda təbliğ olunmur. Belə bir zamanda Şıxəli Qurbanovdan aldığı dəstək Nəsir İmanquliyevə bəs edir ki, mənfur ermənilərin cavabını versin. Amma problemin daha mürəkkəb tərəfini Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi İmam Mustafayev həll edir. O bilirdi ki, istədiyi şəkildə ermənilərin cavabını vermək üçün iradəli bir şəxsiyyət lazımdır . Odur ki Nəsir İmanquliyevi Radio-İnformasiya Baş İdarəsinə rəis təyin edir.

**"Nəsir müəllim az sonra "Oxu, tar, səni kim unudar" şüarı altında muğam müsabiqəsinə start verir. Bu müsabiqənin münsiflər heyətində Səid Rüstəmov, Müslüm Maqomayev, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Xan əmi əyləşirdi. Təsəvvür edin, Səid Rüstəmov adına xalq çalğı alətləri orkestrinin bədii rəhbəri Nəriman Əzimov o müsabiqədə tarzən kimi iştirak edirdi. Müsabiqəyə Habil Əliyev, Şövkət Ələkbərova, Sara Qədimova, Rübabə Muradova və başqaları qatılır. Onlar sonralar Azərbaycan mədəniyyətinə, muğamların təbliğinə kifayət qədər xidmətlər göstərdilər.**

1939-cu ildə Moskvada mədəniyyətimizlə bağlı ilk dekada keçirilmişdi. Nəhayət, böyük zaman fasiləsindən sonra 1959-cu ildə yenidən Moskvada Azərbaycan mədəniyyəti günləri baş tutdu. Nəsir müəllimin Radio-İnformasiya Baş İdarəsində rəhbəri olduğu illərdə "Oxu, tar, səni kim unudar" müsabiqəsindən çıxan böyük sənətkarlar Azərbaycan muğamlarını yenidən Rusiyada, uzaq şimalda təbliğ edirlər. Bu, əslində Nəsir İmanquliyevin şəxsiyyəti, kimliyi barədə ən böyük dəyər, ən ali qiymətdir. Nəsir İmanquliyevin böyüklüyü ondadır ki, bu gün cismən bizimlə olmasa belə, Xan əmi, Sara Qədimova, Şövkət Ələkbərovamız artıq sağ deyilsələr də, muğamlarımız yaşayır və belə gözəl sənət əsərləri professor Nəsir İmanquliyevin təşkil etdiyi "Oxu, tar, səni kim unudar" müsabiqəsinin yadigarı olaraq bizim əsrimizə gəlib çıxıb. Demək istəyirəm ki, hamı Nəsir müəllimi "Bakı" – "Baku" qəzetinin qurucusu kimi tanıyır. Nəsir müəllim redaktor olduğu illərdə muğamlarımız, mədəniyyətimizlə bağlı silsilə yazılar "Bakı" – "Baku" qəzetində yer alıb. Nəsir müəllimin xoşbəxtliyi ondaydı ki, olduğu yerdə mədəniyyətimizə dəyər verilir,

**Azərbaycan muğamları yaşadılır, ona abidə ucaldılırdı...**

**– Şərəf xanım, artıq Azərbaycan muğamları sərhədlərimizi aşıb bütün dünyaya yayılıb. Sizə elə gəlmirmi ki, ölkənin birinci xanımı Mehriban Əliyevanın bu illər ərzində milli musiqimizi, muğamımızı himayə etməsi doğma babasının – professor Nəsir İmanquliyevin bu sahənin inkişafına göstərdiyi xidmətlərdən mənbələnib?**

– Nəsir müəllim Azərbaycan mədəniyyətinə, xüsusilə muğam sənətinə, jurnalistikaya pedaqoji xidmətləri və ictimai səpkidə verdiyi dəstəklə unudulmaz tarix yazdı. O böyük səxsiyyətin rəhbəri olduğu Radio-İnformasiya Baş İdarəsinin təşkil etdiyi muğam müsabiqəsindən 50 il keçəndən sonra Azərbaycanın birinci xanımı, hörmətli Nəsir müəllimin iki əziz-xələf nəvəsindən biri Mehriban xanım Əliyeva bu sahəni himayəsinə aldı. Təsəvvür edin, az qala muğama qarşı səlib yürüşünün təşkil edildiyi, bayağı musiqilərin meydanı başına götürdüyü bir vaxtda Mehriban xanım öz böyüklüyü, kökündən, genetik yaddaşından irəli gələn diqqətiylə Azərbaycan muğamlarına sahib çıxdı. İlk dəfə Azərbaycanda Muğam Mərkəzinin təməli qoyuldu. Muğam portalı yaradıldı. Muğam müsabiqələri silsilə şəklində təşkil olundu. Azərbaycanda muğama dəstək verən böyük sənətkarların albomları buraxıldı. Muğam ensiklopediyası işıq üzü gördü. Azərbaycanın, Qarabağın böyük xanəndələri respublikadan kənarda təbliğ olunmağa başladı. Əlbəttə, bunu Nəsir İmanquliyevin müdrik şəxsiyyət olaraq öz varislərinə vəsiyyətinin nəticəsi təki qiymətləndirmək mümkündür.

**"Nəsir müəllim kimi insanlar ölmür. Millətin elə qüdrətli ziyalıları var ki, onlar öz övladlarına, nəvəsinə, yetirməsinə, tələbəsinə, dövrdaşına heç vaxt demir ki, bu işi gör. Öz əməlləri ilə doğmalarına, balalarına, nəvələrinə, həm də bizim kimi onu sevən insanlara bir həyat dərsi verirlər. Baxın, bu gün müstəqil Azərbaycanda, həm də sərhədlərimizdən kənarda insanlar muğamlarımızla – "Segah"la, "Şur"la, "Bayatı-Şiraz"la, "Qarabağ şikəstəsi" və "Şirvan şikəstəsi" ilə yaşayırlar. Deməli, o muğamlar yaşadıqca, muğamları yaradan xalq kimi, zamanında onu basqılardan, hücumlardan qoruyan Nəsir İmanquliyev kimi şəxsiyyətlər də yaşayacaq.**

Samirə Hidayətqızı


Nəsir İmanquliyev həyat yoldaşı Gövhər xanımla